Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika
Uşaq Kitabxanası**

# Qəlblərdə yaşayan şair - Səməd Vurğun

*(Səməd Vurğunun anadan olmasının 110 illiyi münasibəti ilə hazırlanmış metodik vəsait)*

**Bakı – 2016**

Tərtibçi: **Aynurə Əliyeva**

**Nuranə Əhədova**

Redaktor və
buraxılışa məsul: **Zahirə Dadaşova**

**Qəlblərdə yaşayan şair-Səməd Vurğun. Səməd Vurğunun 110-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait**

## Tərtibçidən



Nadir  istedadlar yetişir, ancaq,
Səndən nə gəlməyib, nə gəlməyəcək.

**(O.Sarıvəlli)**

Elə sənətkarlar olur ki, bir zaman büllur ayna kimi parlamış əsərləri zaman keçdikcə əvvəlki parlaqlığını itirir, zaman onların üstünü örtür. Lakin bəzi şairlər də vardır ki, illər qərinələr, əsrlər keçsə belə həmişəyaşar olaraq qəlbimizə həkk olunur... Dahilər haqqında ürək sözü söyləmək həm çətin, həm də məsuliyyətlidir. Xüsusən biləndə ki, deyəcəyin söz bir böyük insan, istedadlı bir şair haqqındadır, həyəcanın daha da artır. Belə sənət, söz-saz ustadlarından biri də, nəğməkar şair, xalq şairi Səməd Vurğundur. S.Vurğunu kim eşitməyib?.. Onun qəlbləri məftun edən poeziyası və dramaturgiyası ilə tanış olan hansı kəs həyəcanlanmayıb?.. Həmişəyaşar şair S.Vurğun xalqın oxuyan qəlbi idi. O, Azərbaycanı, onun keçmişini, bu gününü, sabahını tərənnüm edirdi. S.Vurğun Odlar yurdunun taleyinin nəğməkarı idi. O, yeni dünyanın müğənnisi idi. Onu da qeyd edək ki, xalq şairi adını daşımaq  ilk dəfə S.Vurğuna nəsib olub. Bu gün onun həmişəbahar yaradıcılığını yad etməmək, xatırlamamaq, söz söyləməmək mümkün deyildir.

## Mən ellər oğluyam, ellər canımdır!

Xalqımız Səməd Vurğunun anadan olmasının 110 illiyinə hazırlaşdığı bir vaxtda bu gözəl söz ustası, onun sənətkarlığı və insani xüsusiyyətləri haqqında söz açmaq hamımız üçün xoşdur. S.Vurğun irsi çox zəngin və rəngarəngdir. O, görkəmli şair, istedadlı dramaturq, alovlu publisist, tənqidçi və nəzəriyyəçi, tərcüməçi, sülh uğrunda mübariz, mətin, dövlət xadimi kimi tanınmış, fəaliyyət göstərmiş, yaşayıb-yaratmış, məhşurlaşmışdır. S.Vurğun tükənməz bir mədəndir. Onun dərin qatlarına baş vurduqca yeni xəzinələr aşkar edirsən. S.Vurğun şüurlu həyatını müasir cəmiyyətə həsr etmişdir. Şair gözəl amal və idealla üç yüzdən yuxarı içtimai-siyasi məzmunlu şeir, iyirmi altı gözəl poema, beş mənzum dram, iki yüzə yaxın məqalə, oçerk yazmış, bir çox məruzə və çıxışlar etmişdir. Səməd Vurğun təkcə bədii yaradıcılıqda deyil, ümumiyyətlə hər sahədə təpədən-dırnağa qədər şair idi. Onun poetik ilhamı Azərbaycan torpağının, təbiətinin özü kimi zəngin, bərəkətli və səxavətli idi. Şairin ilhamı coşğun dağ çayına bənzəyirdi və hansı sahədən bəhs etsə idi, orada incilər, mirvarilər kəşf etmək iqtidarına malik idi. Şair Azərbaycan poeziyasını zirvələrdə qaldırmağa nail oldu. Onun yaradıcılıgında ən aparıcı cəhət vətən və xalq motivləridir. S.Vurğun əlinə qələm alandan özünü xalqın mübariz əsgəri sayırdı. O, zəhmət adamlarının əməyini, hünərini nəinki “Muğan” kimi gözəl poemasında, bir çox şeirlərində, həmçinin “Fatma xala” (1930), “Buxtada” (1931), “Bir səhər” (1942), “Muğanın yeni dövranı” (1952), “Mingəçevir işıqları” (1954) və s. kimi oçerklərində vəsf etmiş, onların dolğun surətini yaratmışdır.

S.Vurğun 1937-ci ildə də dərc etdiyi bir məqaləsində “Azərbaycan” adlı böyük bir epopeya üzərində işlədiyini xəbər verirdi. Burada Azərbaycan torpağının iki min illik tarixinin əsas mərhələləri, misilsiz nailiyyətlər, yurd gözəllikləri öz bədii əksini tapmalı idi. Bu epopeya bir-birinə bağlı 30 poemadan ibarət olmalı idi. Məşhur Azərbaycan şeiri epopeyanın proloqu kimi nəzərdə tutulmuşdu. Sair özü yazırdı: “Bu şeir isə mənim həyatıma, bütün həyat proqramıma uyğundur.”

## Ulduzlar sönmür

Səməd Vurğun (Səməd Yusif oğlu Vəkilov) 1906-cı ildə Qazax qəzasının Salahlı kəndində anadan olmuşdur. İbtidai təhsilini kənddə alan Səməd 1918-ci ilə kimi Salahlıda yaşamış, sonra isə Qazaxa gəlmişdir. Bu zaman Qori şəhərindən müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçmüşdü. Səməd Vurğun təhsilini burada davam etdirir. Kürdə üzməyi, at minməyi, anadil quşunun  səsini tarda, sazda, skripkada çalmağı, nağıl dinləməyi, bədahətən şeir deməyi, riyaziyyatı çox sevirmiş. Qazaxa gələrkən Firidun bəy Köçərlinin onun təhsilini davam etdirməsində böyük rolu olmuşdur. S.Vurğun 1924-cü ildə Qazax Pedaqoji Texnikumunu bitirir. Əvvəlcə rayonun Köçəsgər kəndində, sonra Gəncə, Quba rayonlarının ibtidai və orta məktəblərində müəllimlik edir. Elə həmin illərdən mətbuatda arabir şairin səsi eşidilməyə başlayır. “Qızıl qələm“ ədəbiyyat cəmiyyətinin Gəncə şöbəsində çalışır. Müəllimlik, kollektivə qaynayıb-qarışmaq, mədəniyyət və sənaye ocaqlarında, fəhlə yığıncağında şeir oxumaq, ədəbi mübahisə və müzakirələrdə iştirak etmək S.Vurğunu tədricən içtimai həyatın axınına çəkir, onun həyat biliyini, məlumatını zənginləşdirir. İllər keçdikcə yaradıcılıq

imkanları daha da çoxalır, aşıb-daşır. S.Vurğun bir-birinin ardınca gözəl şeirlər yazmaqla bərabər, dram əsərləri yaradır. Müxtəlif xalqların ədəbiyyatlarından bir çox tərcümələr edir, dövlət xadimi kimi mühüm işlərdə fəal çalışır. S.Vurğun 1935-1940-cı illər arasında dahi rus şairi Puşkinin "Yevgeni Onegin" mənzum romanını, Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasının bir hissəsini, N.Gəncəvinin "Leyli və Məcnun" dastanını, M.Qorkinin "Qız və ölüm" poemasını və bir sıra digər şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə edir. Bu sahədəki xidmətlərinə görə şair "Puşkin medalı" və Gürcüstan MİK-in fəxri fərmanı ilə təltif edilir. Xalqımızın tarixi keçmişi və müasir həyatı onun ilhamını daha da coşdurur. Şair bir-birinin ardınca "Vaqif" (1938), "Xanlar" (1939), "Fərhad və Şirin" (1941), "İnsan" (1944) kimi qiymətli dram əsərlərini yazır. Müharibə illərində o, xüsusilə gərgin işləyir:

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən,

- deyən şairin səsi gah səngərlərdən, gah arxa cəbhədən eşidilir. Bu illərdə o, Azərbaycan Yazıçılar İttifaqına ləyaqətlə rəhbərlik etməklə bərabər, əlli şeir, iki sanballı poema, üç mənzum dram, yeddi nəğmə, iyirmidən çox elmi-publisistik məqalə yazır. Şair, S.Rüstəmlə birlikdə "Azərbaycan himni"nin mətnini yazır. Səməd Vurğunun "Vətən ordusu", "Döyüşçülər marşı" şeirlərinə Ü.Hacıbəyov tərəfindən musiqi bəstələnmişdir. 1939-cu ildə "Şərəf nişanı"ordeni ilə təltif edilən S.Vurğun həmçinin Respublika Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri vəzifəsində çalışır. S.Vurğun 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1953-cü ildə isə prezident müavini seçilir. Şair ömrünün sonuna kimi bu vəzifədə

çalışır. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi ədəbiyyat sahəsindəki xidmətlərinə görə ona filologiya elmləri doktoru elmi dərəcəsi verir. Dəfələlərlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilən S.Vurğun 1956-cı ildə ikinci dəfə Lenin ordeni ilə təltif olunur və ona Azərbaycan SSR xalq şairi adı verilir. Müharibədən sonra şairin səsi həmçinin bir sıra xarici ölkələrdən eşidilir: Polşadan, ADR-dən, İngiltərədən, Ruminyadan, Bolqarıstandan, Çindən... O, bu ölkələrdə sülhü müdafiə edən bir mədəniyyət xadimi kimi ümümdünya konqreslərində gah məruzə edir, gah da öz mübariz və qüdrətli səsini şeir vasitəsilə ucaldır.

Səməd Vurğun 1955-ci ilin dekabrına qədər Bakıda, sonra isə Moskvada Kreml xəstəxanasında müalicə olunur. S.Vurğun hiss edir ki, həkimlər onun barəsində ümidsiz danışırlar. Onu da deyək ki, hələ 1955-ci ildə şair İstisuda istirahət edərkən, elə bil ki, artıq bu dağlara bir də gəlməyəcəyini qabaqcadan hiss etmişdi. Buna görə də, o zaman buludsuz göylərə baxıb demişdi:

Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandır ayrılıq dərdi,
Demə Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni!

Amansız xəstəlik şairi sarsıdır. 1956-cı ilin fevralında şairi doğma Bakıya gətirirlər. Onun 50 yaşı yaxınlaşırdı. Xalq bu yubileyi geniş qeyd etmək üçün hazırlaşırdı. Lakin şairin yubiley çiçəkləri matəm əklillərinə qarışdı. 1956-cı il mayın 27-də günəş qürub edən zaman Səməd Vurğun gözlərini əbədi yumdu.

Səməd Vurğun yaradıcılığını gənc nəslə, məktəblilərə tanıtmaq üçün kitabxanada bir sıra tədbirlər keçirilə bilər. Bu tədbirlərin əsas mahiyyəti ədiblərin, eləcə də sözü gedən şairin yaradıcılığına oxucu

diqqətini yönəltmək və onun əsərlərini tanıtmaqdır.Tədbirdə şairin həyat və yaradıcılığı, əsərləri, ümumilikdə onun duyğulu ömür yolu oxuculara çatdırılmalıdır. Kitabxanada keçirilən belə tədbirlər oxucular tərəfindən rəğbət və bir mənalı qarşılanır, kitaba və mütailəyə qarşı sevgi aşılanır. Bu öhdəlik ən çox kitabxanaçının üzərinə düşür. Bu münasibətlə kitabxanada şairin kitab sərgisi hazırlanır. Sərgiyə "Səməd Vurğun -110", "El məhəbbəti", "Nemətsə də gözəl şeir", "Qəlblərdə yaşayan şair", "Vurğun ürəklərdədir", "Səməd Vurğun və milli təfəkkür", "Vurğuna vurğunluq", "Ədəbiyyatımızın müsəlləh əsgəri – Səməd Vurğun", "Tükənməz xəzinə", "Estetik kamillik", "Xalq ədəbiyyatına məhəbbət", "Döyüşkən poeziya", "Poeziyanın fəxri", "Bizdə şeir də var, sənət də vardır, Şairə, sənətə hörmət də vardır", "Demə Səməd Vurğun gəldi-gedərdi", "Vurğunu da salar yada", "Şair, nə tez qocaldın sən", "Səməd Vurğun - vətənpərvərlik, beynəlmiləlçilik, xəlqilik", "Mən ellər oğluyam, ellər canımdır", "Qəlblərdə yaşayan şair", "Unutmaz bu oba, bu mahal məni", "Ölməz sənətkar Səməd Vurğun", "Xalqın qəlbində yaşayan sənətkar xoşbəxtdir", "Şeirimizin bayraqdarı" və s. kimi başlıqlar verilə bilər. Sərgidə şairin  ayrı-ayrı illərdə çəkilmiş rəsmləri də nümayiş olunarsa daha yaxşı olar. Bundan başqa şairin müxtəlif  adda olan kitabları, dövri  mətbuatda çap olunan müxtəlif materiallar və görkəmli insanların Səməd Vurğun haqqında söylədikləri sitatlar, şeir parçaları verilir.











**Görkəmli şəxslərin Səməd Vurğun haqqında söylədikləri:**

Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha məhəbbətini, sevgisini, sədaqətini ifadə edir.

**Ümummilli lider Heydər Əliyev.**

Səməd Vurğun poeziyamızın nəhəng planetidir, bu planetin günəşi, ulduzları sönməzdir.

**Şair Nazim Hikmət**

Vurğun sənəti xalq torpağından boy atdı, əsrin qabaqcıl ideyalarından bəhrələndi və bu iki amilə görə dən zəmisinin böyük sənatkarı oldu.

**Xalq şairi Bəxtiyar Vahabzadə**

Səməd Vurğun poeziyası elə bir zirvə tutub ki, ikinci dəfə dünyaya gəlsə, özünün də əli o zirvəyə çatmaz. O, əsil poeziya dahisidir.

**Professor Cəfər Xəndan**

Səməd Vurğun mərd şair olub, mərd yaşayıb, mərdanə də yazıb-yaradıb. Mərd şairi olmayan xalqdan da yazıq xalq xəyala gətirmək çətindir...

**Filologiya elmləri doktoru Kamil Vəliyev**

Səməd Vurğun xalq yaradıcılığımızın forma, üslub xüsusiyyətlərindən böyük sənətkarlıqla istifadə etmiş, folklorumuzun rəngarəng formalarından yüksək istedadla bəhrələnmişdir.

**Professor Paşa Əfəndiyev**

Səməd Vurğun xalq ədəbiyyatına yaradıcı yanaşırdı, orada olanları təkrar etmirdi. Özünün əlavələrini artırmağını unutmurdu. Bir növ sözü-sözə, misranı-misraya, bəndi-bəndə, şeiri-şeirə peyvənd edirdi.

**Filologiya elmləri doktoru Əli Saləddin**

Səməd Vurğun-poeziyamızın təzə zirvələr fəth edən qartallarındandır.

**Yazıçı Aleksandr Fadeyev**

Səməd Vurğun çox gözəl sənətkar olmaqla bərabər, həm də yaxşı, qayğıkeş bir insan idi.

**Tarix elmləri foktoru Məzahir Abbasov**

Səməd Vurğun poeziyası milli teatr sənətimiz, milli kinomuz, televiziyamız, radiomuz və bir aktyor kimi mənim üçün idealdır. Ona doğru addımlamalaq sənətkar üçün əsl nemətdir, səadətdir.

**Xalq artisti Həsən Turabov**

Səməd Vurğun şerindəki böyüklüyün bir səbəbi də sadəlikdir. S.Vurğun sənəti sadəliklə böyüklüyün, adiliklə qeyri-adiliyin ən gözəl nümunəsidir.

**Xalq şairi Bəxtiyar Vahabzadə.**

Səməd Vurğun unudulmazdır. O, el məhəbbətini, elin rəğbətini daima onun uğrunda çırpınan ürəyi ilə qazanmışdır.

**Böyük Vətən müharibəsi və Əmək veteranı İsmayıl Hümbətov**

Səməd Vurğun yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də, şeir müsabiqəsidir. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. "***Nemətsə də gözəl şeir***" adlı şeir müsabiqəsində münsiflər və qonaqlar öz yerini alırlar. İlk öncə kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır.

**Kitabxanaçı:** Səməd Vurğun ədəbi zirvələrdən biridir. Onun haqqında çox yazılıb və bundan sonra da yazılacaqdır. İllər keçdikcə bu böyük beynəlmiləlçi şairə məxsus yeni insani keyfiyyətlər aşkar olunur. Gəlin, biz də bu saflıqdan bəhrələnək Vurğun yaradıcılığının zirvəsinə, iştirakçıların söyləyəcəyi şeirlərə ucalaq... Gəlin, nəğməkar şairimizin şeirlərini dinləyək.

İlk iştirakçı şeirə başlayır.

**Ceyran ( Muğan poeması)**

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartınıb, ox kimi süzüb,
Yenə öz sürüsün nizamla düzüb,
Baş alıb gedirsən hayana ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə,
O qara gözlərin düşdü dillərə.
Dişlərin oxşayır mərcana, ceyran.

Bir məsəl qalmışdı ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran.
Bir mən deyiləm ki, hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana ceyran.

Sükuta qərq olmuş ürəyimlə mən
Keçirəm yenə də muğam çölündən.
Yanında balası, yağış gölündən
Əyilib su içir bir ana ceyran!

Elə ki, son bahar min büsat qurur,
Kolları-kosları yıxıb uçurur,
Sıxlaşıb bir yerdə baş-başa durur
Düşəndə çovğuna, borana ceyran.

On addım kənarda yatmayır təkə,
Gəzinir, oylağa baş çəkə-çəkə,
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran!

Ovçu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçsin ürəyimizdən,-
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

*Kitabxanaçı "Şair, nə tez qocaldın sən" şeirini demək üçün ikinci iştirakçını səhnəyə dəvət edir.*

Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir,

Ömrü keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də.
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal...
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərimdən:
Şair, nə tez qocaldın sən!

Ovçuluğa meyl saldım,
Gecə-gündüz çöldə qaldım.
Dağ başından enib düzə,
Bir ox kimi süzə-süzə
Neçə ceyran nişan aldım;
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən!

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə
Andı yalan, eşqi yalan,
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvarı deyir hərdən:

Şair, nə tez qocaldın sən!

Saç ağardı ancaq ürək
Alovludur, əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm...
Bilirəm ki, deməyəcək
Bir sevgilim, bir də vətən,
Şair, nə tez qocaldın sən!

*Kitabxanaçı "Vətən həsrəti" adli şeiri demək üşün üçüncü iştirakçını səhnəyə dəvət edir.*

Elindən, günündən ayrılan könül,
Arabir vaxt tapıb ağlasın gərək.
Əziz kimsələri qırılmış kimi,
Yas tutub qaralar bağlasın gərək.

Demirəm incidib üzsün özünü,
Əl üzüb dünyadan yumsun gözünü.
` Nə qədər olsa da Vətən sözünü,
Duysun ürəyində, anlasın gərək.

Bir şikəstə neyəm, bir qırıq kaman,
Görmədim bir bəla-həsrətdən yaman,
Vurğun ellər deyib, ağlar hər zaman,
Onun qaydasıdır, ağlasın gərək.

*Dördüncü iştirakçı "Zəfər bayramı" şeirini demək üçün öz yerini alır.*

Qoy çalıb oynasın vətən torpağı,
Göylər səcdə qılsın bu ülviyyətə.
Ölümün,  zülmətin qara bayrağı
Bu gün təslim oldu bizim qüdrətə!

Yazılsln tarixə bir qızıl xətlə
45-ci ilin doqquz may günü.
Başlansın şeirlə, sazla,  söhbətlə
Bu ellər bayramı, ellər düyünü.

Mən də haqq eşqinə, insan eşqinə
Günəşi qaldırdım piyalə kimi.
Şəhidlər ömrünün saf türbəsinə
Şeirim ətir saçır bir lalə kimi...

Ey qoca kainat! Hər kamını al!
Al geyin, sevgilim!Fəsli-bahardır,
Gəlsin  məclisimə bu gün istiqbal
Görsün ki, qəlbimdə nə büsat vardır!..

Ey ilham pərisi! Ey azad səhər!
Nə qədər bəxtiyar görürəm sizi!
Ey bu gün cahana gələn körpələr,
Günəş salamlayır taleyimizi!

Sən ey, mərd oğula süd verən ana!
Qoy öpsün əlini illər həsrəti.

Xeyir-dua versin Azərbaycana.
O ana qəlbinin saf məhəbbəti!

Gül, ey nazlı Vətən!-Odlar torpağı!
Duz-çörək hazırla qəhrəmanlara.
Böyük bir ordunun zəfər bayrağı
Günəş tək yayılır asimanlara.

Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.
Kitabxanada keçiriləcək tədbirlərdən ən möhtəşəmi ədəbi-bədii gecədir. S.Vurğunun xatirəsinə həsr olunmuş ”Vurğunu düşünərkən” adlı ədəbi–bədii gecəyə Azərbaycanın gorkəmli ədiblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. S.Vurğunun sözlərinə bəstələnmiş gözəl müğənnimiz Xumar Qədimovanın ifa etdiyi “Zəfər bayramı” mahnısı səslənir və tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

**I aparıcı:** Kim deyir dünyada Vurğunsuz qaldıq,
Yox, yox ayrılmadıq, görüşdük bir də.
Vurğunlu yaşadıq. Vurğunlu olduq.
Vurğunsuz ötüşüb kecən illərə.

**II aparıcı:** Vurğun bizimlədir həmişə dostlar,
Görünür hər şeir məclisində o.
Yurdun hər yanında Vurğunu gördük,
Hünər meydanında Vurğunu gördük.

**I aparıcı:** Salam, dəyərli qonaqlar, Vurğun sevərlər! Bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiz. Bu gün hamımız Səməd Vurğunun 110-cu ildönümü münasibətilə onun keçdiyi ömür yoluna işıq salmaq üçün şairin ocağına, istisinə yığışmağa, Vurğun zirvəsindən od götürməyə gəlmişik. Çünki Azərbaycan torpağında Səməd Vurğun zirvəsi var. Bu zirvədən günəş doğur. “Vaqif”, ”Aygün”, “Bəsti”, “Aybəniz”, “Eldar”, “Xanlar” şəlaləsi olub qəlblərə axır. O, şəksiz Azərbaycan ədəbiyyatı üfüqlərindən nur saçan ən parlaq simalardandır.

**II aparıcı:** Səməd Vurğun xalqımızın dünya şöhrətli şairi, dramaturq, publisistik, tənqidçi, alim, içtimai xadim, mədəniyyətin fəal qurucusu idi. Onun ürəkdən gələn lirik şeirləri, yüksək pafoslu qəhrəmanlıq poemaları, dram əsərləri sovet ədəbiyyatı xəzinəsinə möhkəm daxil olmuş və Azərbaycan hüdudlarından çox-çox uzaqlarda böyük şöhrət qazanmışdır. O, yorulmaz mübarız, gələcəyə nəzər salan arzular şairi idi. Dünyada az sənətkar tapılar ki, yaşadığı zamanda klassikləşsin, əsərləri ümumxalq kütlələrinin mənəvi sərvətinə çevrilsin. Azərbaycan xalq şairi S.Vurğuna belə xoşbəxtlik nəsib olmuşdur.

**I aparıcı:** İnsana dili anası öyrədir. Uşaq insana çevrilir. İnsan ömrünün ayrılmaz yol yoldaşı, yaddaş kitabı isə söz olur. İnsan böyük söz təşnəsi olur. Söz arayır, söz axtarır ki, onun ardınca getsin. Dünyanı dərk etsin, özünü tapsın, həyatın min bir sualına cavab versin. Bu böyük axtarışda hər bir azərbaycanlının qarşısına bayatı çıxır, atalar sözləri, nağıllar, qoşma və gəraylılar boylanır. Dədə Qorqud və Füzuli, Vaqif və M. F. Axundov, Mirzə Cəlil və Sabir... bu sözün əbədi yolu kimi onu dünyaya yönəldir. Bu adamların taleyi Azərbaycan dilinin taleyidir. Ömrü yaratdığı şeir, həyatı danışdığı dil qədər olan xoşbəxt sənətkarlardan biri də S.Vurğundur

**I aparıcı:** Səməd çılğın təbiətli, narahat qəlbi bir gənc idi. Gündüzlər meşəlikləri, düzənlikləri dolaşar, gecələr saatlarla ayın bədrlənmiş çöhrəsinə tamaşa edər, onun əfsanəsini xatırlardı. Səməd adını ona ata-anası versə də, elinə, vətəninə, xalqına vurulduğuna, elin arzu-istəklərini, mənəvi dünyasını ilhamla tərənnüm etdiyinə görə "Vurğun" adını qazanıb xalqın tarixinə, polad yaddaşına büllur poeziyası ilə həkk olundu. O, qədirbilən xalqımızın vəfasına, etibarına inanıb haqlı olaraq:

Unutmaz aləmdə əhli-halı məni, - dedi.

**II aparıcı**: S.Vurğunun bütün yaradıcılığına xas cəhətlər-sadəlik, səmimilik, duyğularındakı zənginlik və dərinlik, xalq ruhu-bu şeirin canıdır. S. Vurğun yaradıcılığında vətənpərvərlik duyğuları necə də sadə, necə də gözəl tərənnüm olunur! Onun şeirlərini təkrar-təkrar oxusan da şeirlər, misralar səni yormur, elə bil qulağına yeni söz pıçıldayır, ən ülvi hislər aşılayır. Hər söz, hər misra oxucunu nura boyayır, riqqətə gətirir:

Mən bir uşaq, sən bir ana
Odur ki, bağlıyam sana.
Hansı səmtə, hansı yanı
Hey uçsam da yuvam sənsən.
Elim, günüm, obam sənsən!

*(Səhnədən asılmış ekranda Səməd Vurğuna həsr olunmuş çarxlı video slayd nümayiş olunur)*

**I aparıcı**: S.Vurğunun yaradıcılığında uşaqlara da geniş yer verilmişdir. Xalq şairimiz S.Vurğun uşaqları dərin bir məhəbbətlə sevmiş, onlar üçün bir sıra əsərlər yaratmışdır. S.Vurğun "Sənət", "Bahar şərqisi", "İki körpə", "Sünbül", "Tarla nəğməsi", "Uşaq bağçası", "Deyin, gülün, övladlarım", "Ayın əfsanəsi", "Vətəninə

məftun olacaqdır" şeirləri ilə uşaq ədəbiyyatı sahəsində ilk addımlarını atdı. Daha çox "Deyin, gülün, övladlarım" şeiri müharibədən sonrakı uşaq əsərləri içərisində mühüm yer tutur.

Deyin, gülün, övladlarım! Sükunətə düşmənəm mən,
Səssiz keçən günlərimi saymamışam öz ömrümdən.
Deyin, gülün, əl çalın, heç qısmayın səsinizi,
Gülər görüm, oynar görüm, xoşbəxt görüm hər vaxt sizi!..

**II aparıcı:** Onun dostluq, vətənpərvərlik, əməyə məhəbbət ruhunda yazılmış şeirləri kiçik yaşlılar tərəfindən sevilə-sevilə oxunur. Çünki şairin şeirlərinin hər bir misrası uşaqlara olan sevgidən, məhəbbətdən yoğrulduğunu görərik.

**Oxucu:** "Uşaq bağçası" şeirini söyləyir:

Gəlin, balalarım, öpüm sizi mən,
Bir duman görməsin xoş sifətiniz.
Oxuyun, zövq alın mənim şeirimdən,
Var olsun qəlbiniz, məhəbbətiniz,
Bir duman görməsin xoş sifətiniz!..

**I aparıcı:** Şair təkcə özü uşaqlar üçün yazmaqla kifayətlənməmiş, qələm dostlarını da bu mövzuda əsərlər yaratmağa çağırmışdır. S.Vurğunun "Balalarımız üçün gözəl əsərlər yaradaq!" adlı məqaləsi uşaq ədəbiyyatının inkişaf və mədəniyyətinə həsr olunmuşdur. Sevimli şairimizin bu sahədə olan fəaliyyəti bununla məhdudlaşmır. S.Vurğun tez-tez məktəblərə, pioner düşərgələrinə, uşaq evlərinə gedir, uşaqlarla söhbət edir, onların arzu və istəklərini yerinə yetirir. Şair yazır:

**I aparıcı:** "Uşaqlar, siz Vətənimizin yeni nəslisiniz. Bizim elm və ədəbiyyatımızın, bütün mədəniyyətimizin sabahkı yaradıcıları sizsiniz. Ona görə də, siz indidən elm və mədəniyyətin işıqlı və çətin yollarında

möhkəm bir iradə, gələcəyə inam, həyata, insana hörmət və məhəbbət hissi ilə, iftixarla addımlayırsınız."

**II aparıcı:** S.Vurğun böyük şair olmaqla bərabər, həm də sadə insan idi. Bir dəfə ondan soruşurlar: Əsl səadət nədir? Şair belə cavab verir. "Dostum, sən bu sualı öz ürəyinə ver! Neçə insan övladının üzünə övladının qapılarını açmısan? Neçə insan övladının qolundan tutub ayağa qaldırmısan? Bu dünyada ən böyük nemət insanlıqdır. Bir də dünyada bir yaxşılıq qalacaq. Əsl səadət budur."

**Oxucu:**

Deyirəm ki, uzaq yolda susuzluq çəkən
Bir insanın yollarında bulaq olaydım.
Bütün məslək dostlarımın bu dünyada mən
Hər qəminə, nəşəsinə ortaq olaydım!..

**I aparıcı:** Səməd Vurğun xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın bizə yaxın olan ən böyük körpüsüdür. Dədə-Qorquddan gəlib Qurbanidən, Aşıq Abbasdan, Sarı Aşıqdan, Aşıq Ələsgərdən keçən yolun böyük bir zirvəsi Səməd Vurğundur desək, bizcə, yanılmarıq. Səməd Vurğun elə şəxsiyyətdir ki, xalq öz tarixinin bir dövrünü onun adı ilə bağlayıb. Bu Səməd Vurğun dövrüdür. Bu da xalqımızın və onun müasirlərinin nəzərindən qaçmamışdır. Gəlin, oxucularımız tərəfindən söylənən Əjdər Fərzəlinin "Yolum Salahlıdan düşdü" şeirini dinləyək.

**Oxucu:**

Yolum Salahlıdan düşdü bu səhər,
Köhnə ata yurdu Vurğunu andı.
Onu xəbər aldı əsən küləklər.
Həsrətdən lalələr alışdı, yandı.

Ellərdən soruşun dedim yerini
Şöhrətə çatdırıb Azərbaycanı
Aşıb bir ölkənin sərhədlərini,
Gəzir iqlim-iqlim bütün dünyanı.

Keçir Afrikadan, Amerikadan
Zəncinin, ərəbin arzularıyla.
Keçir Vyetnamdan, keçir Kubadan
Şeir baharıyla, söz baharıyla.

**II aparıcı:** Gəlin, Mədinə Gülgünün Səməd Vurğuna yazdığı şeiri dinləyək:

**Oxucu:**

Nə zaman şairdən söz açır qələm,
Ülfətlə başlayır hər sözüm mənim.
Şeirsiz, nəğməsiz isinmir sinəm,
Şeirdir həmdəmim, əzizim mənim.

Səninlə ilk dəfə görüşən gündə
Bir bahar günəşi yandı gözündə.
Dedin, qoşa durur Vətən mülkündə
Sənin Səhəndinlə, Kəpəzim mənim.

Necə nəgmə qoşdun çiçəkli yaza,
Bir rahatlıq duydun sən yaza-yaza.
Dedin, el olmasa, el yaşatmasa,

Qalarmı dünyada bir izim mənim.

Təbrizə sözündə, sazında gəldin,
Ömrün ən günəşli yazında gəldin,
Andınla, əhdinlə, arzunla gəldin
Gülgün, qardaşımız Səməd Vurğuna
Bir gün heykəl qoyar Təbrizim mənim.

**I aparıcı:** Səməd Vurğun bütün varlığı ilə xalqına, elinə bağlı bir şəxsiyyət idi. O, yaxşı bilirdi ki, insana qüvvət, cəsarət verən, onu ilhamlandıran Vətən eşqi, xalqa məhəbbətidir. Dünyada az sənətkar tapılar ki, yaşadığı zamanda da klassikləşsin, əsərləri ümumxalq kütlələrinin mənəvi sərvətinə çevrilsin. Azərbaycanın xalq şairi S.Vurğuna belə bir xoşbəxtlik nəsib olmuşdur.

Yaşayır sənətkar, yaşayır sənət-
Nəsildən-nəsilə salam verərək!

**II aparıcı:** Vətən S.Vurğun poeziyasının daimi mövzularındandır. S.Vurğun Azərbaycanı sonsuz bir məhəbbətlə sevir, başqalarına da, sevdirirdi. Azərbaycan və S.Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni bir məfhumdur. Azərbaycan və S.Vurğun ona görə ayrılmazdır ki, S.Vurğun öz yaradıcılığında poetik obrazını yaratmışdır. “Azərbaycan” Səməd Vurğun yaradıcılığının uverturasıdır.
(*Ekranda Rəşid Behbudovun ifasında “Azərbaycan” mahnısının çarxlı video slaydı nümayiş olunur)*

**I aparıcı:** S.Vurğun təbiət vurğunu idi. Bu cəhət 1928-ci ildə körpələrə həsr etdiyi "Bahar şərqisi" şeirində də özünü göstərir. Şeirdə təbiət təsviri, təbiətin tərənnümü bariz şəkildə verilmişdir.

**Oxucu:**

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər.
Qar, çovğun gözdən itdi,
Dağlarda lalə bitdi.
Qanadlandı buludlar;
Yerdəki əlvan otlar
Cücərib boy atdılar,
Aləmə naz satdılar.
Artdı suların səsi,
Sevindirdi hər kəsi.

**II oxucu:** **"Dağlar"** şeiri.

Binələri çadır-çadır
Çox gəzmişəm, özüm, dağlar!
İlhamını sizdən aldı
Mənim sazım, sözüm dağlar!

Maral gəzər asta-asta,
Enib gələr bulaq üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin necə dözüm, dağlar?

Hər obanın bir yaylağı,

Hər tərlanın öz oylağı;
Dolaylarda bahar çağı
Bir doyunca gəzim dağlar!

Qayaları baş-başadır.
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır.
Canım dağlar, gözüm dağlar!
Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar.

(*Ekranda Şövkət Ələkbərovanın ifasında "Dağlar" mahnısının çarxlı video slaydı görünür.)*

**II aparıcı:**

Xalqımızın həmişəyaşar şairi S.Vurğunun ev-muzeyi ildən-ilə yeni eksponatlarla zənfginləşir. Bu nadir saxlanclar içərisində lent yazılarının xüsusi qiyməti vardır. Lent yazılarına şairin öz ifasında əsərləri, pyes və poemalarının şeirlərinin aktyor səsi, müxtəlif radio və televiziya verilişlərinin çıxışları, xatirələr, mülahizələr...daxildir. Bu qiymətli yadigarlar şairin tədqiqatçıları üçün də,Vurğun şeirinin pərəstikarları üçün də, çox əzizdir. Muzey üçün isə əvəzsiz sərvətdir.

**I aparıcı:** Şairin öz səsində əsərləri xüsusi bir əzəmətlə, Vurğuna xas pafosla səslənir. "Vaqif", "Fərhad və Şirin", "İnsan" və s. əsərlərin lent yazıları bu gün daha qiymətlidir. Şairin sənət incilərinə, xeyirxahlıq timsalı olan insanlığına pərəstiş edənlərin sevgiylə dolu ürək sözlərini dinlərkən ilk baxışda kövrəlirsən, şairin ömrünə qıyan "Vaxtsız əcəl" namərdliyinə yanıb-yaxılırsan. Sənətini və xatirini əziz

tutduğu dahi bəstəkarımız Uzeyir Hacıbəyov dünyasını dəyişəndə S.Vurğunun söylədiyi bu sözlər yada düşür:

Ölüm sevinməsin qoy!.. Ömrünü vermir bada.
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirə tək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

**I aparıcı:** S.Vurğun 50 yaşında ikən bütün varlığı, odlu sənətkar qəlbi ilə sevdiyi bu gözəl dünyamıza gözlərini əbədilik yumdu. S.Vurğun ölümdən də güclüdür. Şairin öldüyü gündən onun ölməzliyi başlayır. O, daim qəlblərdə yaşayır. İndi hər yerdə sənətsevərlərin yaddaşında bir ad əbədiləşib: Səməd Vurğun. S.Vurğun vaxtilə dostlarına demişdi ki, "mən öləndən sonra 100 yaşım olanda məzarımın üstünə 100 bənövşə qoyun". Bu vəsiyyətə rəğmən ilk 100 bənövşəni hörmətli Aybəniz xanım Vurğun qızı martın 22-də şairin qəbri üstə qoymuşdu. S.Vurğunsuz keçən illər S.Vurğunsuz keçməmişdir. Bu illərdə Vurğun milyonlarla oxucuların şüurunda yaşamış, qüdrətli bədii sözü ilə həmişə onların həyat və mübarizə yollarını işıqlandırmışdır. Heç bir şübhə ola bilməz ki, Vurğun vurğunu olduğu Azərbaycanla birlikdə yaşayacaq, gələcək nəsillərin şüuruna daxil olub onların da həyat və mübarizə yollarını işıqlandıracaqdır. S.Vurğun Azərbaycan ədəbiyyatı baniləri sırasında daim bir müsəlləh əsgər kimi var olacaq. Illər, əsrlər keçəcək, lakin vicdanın o möhtəşəm heykəli, Vaqif poeziyası həmişə yaşayacaqdır.
**II aparıcı:** Ümumiliderimiz Heydər Əliyevin şair haqqında dedikləri fikirlər ilə gecəmizi bitirmək istərdim. "Səməd Vurğun Azərbaycanı, öz xalqını, öz dilini nə qədər sevirdi! Bunları hər dəfə yada saldıqca

insan coşur, həyəcanlanır. S.Vurğun əgər bu günləri-Azərbaycanın müstəqilliyini, azadlığını görmədisə də, onun ruhu bu gün bizimlədir".

**Oxucu: Bu dünyadan Vurğun keçdi dedilər.**

Bu dünyadan Vurğun keçdi dedilər,
Soruşmayın bu nə kəlam, nə sözdür,
Sanmayın ki, Vurğun köçdü dedilər,
Bu hikmətdir, bu yanğıdır, bu rəmzdir,

Kim vermişdir o şairə bu adı?
Bilmirdimi məhəbbət bir bəladı?!
Vurğun ömrü Vurğunluqla taladı,
Dedi, sənət mənə məndən əzizdir.
Dağ dedilər, bulud qondu başına,
Ağ saçları yaraşmırdı yaşına.
Bir söz desəm, dünya, gəlməz xoşuna,
Hansı hökmün, hansı əmrin de, düzdür,
Bir ömürdə neçə ömür yaşardı
Öz ömrünü ömürlərə qoşardı.
Nə zaman ki, şeir oxur -coşardı,
Sanardın ki, şəlalədir, dənizdir,

Bir körpünün dərdi qaldı sinədə,
Bu dərd çoxdan doğma olub mənə də.
Xudafərin Araz üstə yenə də
Kimsəsizdir, arxasızdır, yalqızdır.
İllər ötdü illər üstə qalandı,
Bu illərdə şair ömrü talandı.
"Biz gedərik-dedin-dünya qalandı".

Mən deməрəm bu dünyamız sənsizdi.
Şeir, sənət ocağıdır bu Vətən,
Hər öcaqda bir şölə var sözündən.
Oğlum!-deyib, şöhrətinlə fəxr edən
Burda Bakı, o sahildə Təbrizdir.

*SON*

## *Ədəbiyyat siyahısı*

## *ƏSƏRLƏRİ*

### ***LATIN QRAFİKASI İLƏ***

Seçilmiş əsərləri : 5 cilddə. I cild : şeirlər. - Bakı : Şərq-Qərb, 2005. - 260 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 5 cilddə. II cild : şeirlər. - Bakı : Şərq-Qərb, 2005. - 247 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 5 cilddə. III cild : poemalar. - Bakı : Şərq-Qərb, 2005. - 424 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar

2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 5 cilddə. IV cild : dram əsərləri. - Bakı : Şərq-Qərb, 2005. - 400 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 5 cilddə. V cild : məqalələr, məruzələr, nitqlər və oçerklər. - Bakı : Şərq-Qərb, 2005. - 384 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 520 s.

Seçilmiş əsərləri : şeirlər və poemalar. - Bakı : Adiloğlu, 2004. - 382 s.

Seçilmiş əsərləri [Elektron resurs] ; məsl. L. Məmmədova; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli. - (Nizami layihəsi).

Aygün : poema. - Bakı : Adiloğlu, 2004. - 144 s.

Azərbaycan : poeziya. - Bakı : CBS Polygraphic production, 2001. - 12 s.

## *KİTABLARDA*

Azərbaycan ; Şuşa : şeirlər // El bilir ki, sən mənimsən... : şeirlər. - Bakı : Təhsil - 2013. – S.33-35.

Dilcan dərəsi ; Ana ; Bizim dağlar və b.: şeirlər // Türk xalqları ədəbiyyatı : poeziya. IV cild : Ən yeni dövr. - Bakı : Çaşıoğlu - Azərbaycanda Atatürk Mərkəzi, 2007. – S.43-49.

Vaqif : Beş pərdəli mənzum dram // Türk xalqları ədəbiyyatı : poeziya. IV cild : Ən yeni dövr. - Bakı : Çaşıoğlu - Azərbaycanda Atatürk Mərkəzi, 2007. – S.50-66.

## *DÖVRİ MƏTBUATDA*

Ana : şeir // Füyuzat. - 2009. - № 6 (50). - S. 24. - Şeir 1927-ci ildə yazılmışdır.

Ana ; Cəfər Cabbarlının ölümünə ; Xavərə : şeirlər // Yeni Azərbaycan. - 2010. - 1 may. - N 76. - S. 10.

Azərbaycan  ; Şair, nə tez qocaldın sən! ; Yada sal məni ; Dağlar: şeirlər // Azərbaycan. - 2006. - № 3. - S.3-5.

Bahar şərqisi : şeir // Göyərçin. - 2007. - № 3. - S.2.

Ceyran : şeir // Savalan. - 2011. - 4-7 fevral. - № 6. - S. 3.

Zəfər bayramı : şeir // Ədəbiyyat qəzeti. - 2010. - 7 may. - N 18. - S. 1. - Şeir ilk dəfə "Ədəbiyyat qəzeti"nin 1945-ci ilin 10 may tarixli nömrəsində dərc edilmişdir.

## HAQQINDA

### ***KİTABLARDA***
### *Latın qrafikası ilə*

Cəfərov N. Səməd Vurğun // Türk xalqları ədəbiyyatı : poeziya. IV cild : Ən yeni dövr. - Bakı : Çaşıoğlu - Azərbaycanda Atatürk Mərkəzi, 2007. – S.37-42.

Əlioğlu M. Poetik düşüncələr : Səməd Vurğunun yaradıcılığı haqqında // Darıxan adamlar. 2 cilddə. I c. - B. : Təhsil, 2009. - S. 773-777.

Qəhrəmanlı N. S.Vurğun və Cənubi Azərbaycan // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab. - B. : Elm, 2008. - S. 71-83.

Nəbiyev B.Ə. Səməd Vurğun haqqında etüdlər // Xəzan vurmasın : Toplu . - Bakı : Elm, 2006. – S.135-155.

Süleymanov Q. Üreklərdə yaşayan şair . II kitab : Sənət dostları Səməd Vurğun haqqında. - Bakı : Nərgiz, 2010. - 192 s.

### *Kiril qrafikası ilə*

Abdullayev C. Səməd Vurğun poetikası. - Bakı : Gənclik, 1976. - 160 s.
Abdullayev C. Səməd Vurğunun sənət dünyası. - Bakı : Yazıçı, 1986. – 320 s.

Bağırov B. Orta məktəbdə Səməd Vurğunun həyat və yaradıcılığının tədrisi. - Bakı : Maarif, 1970. - 123 s.
Bayramov A. Səməd Vurğun yaradıcılığında insan: Millilik və ümumbəşərilik. - Bakı : Azərbaycan Dövlət Universiteti nəşriyyatı, 1999. - 312 s.
Bukov J.H. Səməd : poema. - Bakı : Azərnəşr, 1975. - 44 s.
Cəfərov M. C. Səməd Vurğun : Həyat və yaradıcılığı. - Bakı : Azərnəşr, 1966. - 51 s.
Ellər vurğunu : Vurğun ömrü məktublarda. – Bakı : 1996. – 368 s.
Əfəndiyev P. Səməd Vurğun və xalq yaradıcılığı. - Bakı : Yazıçı, 1992. - 120 s.
Əhmədov T. Səməd Vurğun. - Bakı : İşıq, 1986. - 364 s.
Mehdi F. Alovlu publisist Səməd Vurğun : haqqında. - Bakı : Azərnəşr, 1967. - 191 s.
Nəzirli Ş. Yaddaşlarda yaşayan Vurğun. – Bakı : Şərq-Qərb, 1996. – 292 s.
Səfərov M. Səməd Vurğun və klassiklər: Müəllim üçün vəsait. - Bakı : Maarif, 1995. - 56 s.
Səməd Vurğunun aforizmləri. - 1-ci çapı. - Bakı : Azərnəşr, 1987. - 96 s.
Vahabzadə B. M. Səməd Vurğun. - Bakı : Gənclik, 1984. - 380 s.
Vahabzadə B. M. Səməd Vurğun. : Monoqrafiya. - Bakı : Azərnəşr, 1968. - 348 s.
Vəkilov R. Səməd Vurğunun ədəbi-tənqidi görüşləri. - Bakı : Yazıçı, 1982. - 204 s.

## ***DÖVRİ MƏTBUATDA***

Abdullayev B. Vurğuna Vurğunluq : Səməd Vurğun haqqında // Təhsil problemləri. - 2006. - 11-12 iyun. - S.7.

Abdullayev C. Vurğun sənətinə yeni baxış // Mədəniyyət. - 2006. - 12 sentyabr. - S.6-7.
Ağabəyova M. Aybəniz həsrəti // Ədəbiyyat qəzeti. - 2009. - 19 iyun. - S. 3.
Alxasov A. Unudulmaz görüş : Səməd Vurğun // Savalan. - 2006. - 4 - 6 aprel. - S.3. ; Mədəniyyət. - 2006. - 8 aprel. - S.8.
Alışanlı Ş. Səməd Vurğunun bədii metod konsepsiyası // Ədəbiyyat qəzeti. - 2007. - 29 iyun. - S.1-2.
Azəroğlu B. Xatirələrim // Ədəbiyyat qəzeti. - 2009. - 14 avqust. N 31. - S. 3.
Azəroğlu. Böyük şair : şeir : May, 1956 // Ədəbiyyat qəzeti. - 2006. - 5 may. - S.1.
Baharlı M. Böyük ədəbiyyatşünas : Səməd Vurğun sənət, sənətkarlıq və sənətkarlar haqqında // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2011. - № 4. - S. 7-16.
Baharlı M. Böyük ədəbiyyatşünas sənət, sənətkarlıq və sənətkarlar haqqında : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 10 mart. - S.7.
Bayramov A. "A bala, özündən muğayat ol!.": Səməd Vurğun - 100 // Mədəniyyət. - 2006. - 8 aprel. - S.5.
Bayramov A. Bir görüş haqqında : Səməd Vurğunun ev-muzeyi haqqında // Mədəniyyət. - 2010. - 29 sentyabr. - N 67. - S. 13.
Bayramov A. Xatirəyə dönən görüşlər : Səməd Vurğunun ev muzeyi haqqında // Mədəniyyət. - 2010. - 29 dekabr. - N 92. - S. 15.
Bayramov A. Qəlblərdə yaşayan sənət : Səməd Vurğun - 100 // Mədəniyyət. - 2006. - 1 aprel. - S.5.
Bayramov A. Rənglərlə yaşayan ömür : Səməd Vurğun // Mədəniyyət. - 2011.- 26 avqust. - № 63. - S. 13.
Bayramov A. Şair və zaman : Səməd Vurğun müharibə dövrünün ədəbi proseslərinə necə rəhbərlik edirdi? // Mədəniyyət. - 2011. - 4 fevral. - № 9. - S. 13.
Bayramov A. Tablolarda yaşayan ömürlər : S.Vurğunun və

C.Cabbarlının ev muzeyi haqqında // Mədəniyyət. - 2010. - 15 oktyabr. - N 72. - S. 12.
Bir əbədi sənəti var... : Səməd Vurğun // Ədəbiyyat qəzeti. - 2008. - 4 aprel. - S. 1.
Cəmşidov Ş. Böyük sənətkarlar haqqında xatirələrim // Ədəbiyyat qəzeti. - 2006. - 25 avqust. - S.2.
Ədəbiyyatımızın böyük dostu Heydər Əliyev xalq şairi Səməd Vurğun haqqında : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 5 may. - S.1.
Əfəndiyev Ə. "Dostsuz həyat ağır və darıxdırıcı olur" : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 12 may. - S.1-2.
Əliyev A. Mehdi Hüseyn və tənqidçi cəsarəti // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2009. - N 3. - S. 20-23.
Əliyev Y. Azərbaycan Səməd Vurğunun gözü ilə : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 14 aprel. - S.4.
Əliyeva N. Vətəndaşlıq nümunəsi, vətənpərvərlik duyğularının etalonu: Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 22 may. - S.7.
Əsgərli Ə. Əbədi müasirimiz Səməd Vurğun Xəlil Rza Ulutürkün "Gündəliyi "ini vərəqlərkən : Səməd Vurğun -100 // Ədəbiyyat qəzeti. - 2006. 19 may. - S.3.
Əsgərli Ə. Vurğuna vurğun baxışla // Ədəbiyyat qəzeti. - 2007. - 10 avqust. - S.1-2.
Hacızadə N. Qəlbimizin və ruhumuzun vurğunu // Ulduz. - 2011. - № 6. - S. 27-33.
Hüseynoğlu S."Səməd Vurğun"qatarı və yaddan çıxmaz bir gün // Ədəbiyyat qəzeti. - 2006. - 26 may. - S.2.
Hüseynov K. Xalqın ürəyində yaşayan şair : Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 25 mart. - S.10.
Xalq şairi Səməd Vurğunun 100 illiyinə həsr olunmuş yubiley gecəsi : Səməd Vurğun - 100 // Azərbaycan. - 2006. - 26 may. - S.6. .
Xəlilzadə F. Dünyanın xəritəsi bir rəngdə deyil // Azərbaycan. - 2009. - 13 fevral. - S. 15.

Xəlilzadə F. Zamanın həqiqəti, dövrün nəğməsi : Səməd Vurğun - 100 // Azərbaycan. - 2006. - 24 mart. - S.7.
İlyas Əfəndiyevin gözü ilə: Şəhərdən gələn ovçu : Səməd Vurğun - 100 // Mədəniyyət. - 2006. - 13 may . - S. 4-11.
İradə. Həyatsevər insan : Aygün Vəkilova ilə söhbət // Mədəniyyət. - 2010. - 11 iyun. - N 39. - S. 10.
Kazımlı K. Bahar nəfəsli şair : Səməd Vurğun - 100// Mədəni - Maarif. - 2006. - № 9. - S.36-37.
Kazımlı K. Elin böyük nəğməkarı : Səməd Vurğun - 100 // Mədəni - Maarif. - 2006. - № 8. - S.46-48.
Kazımlı K. Şairin Şərəfinə : Səməd Vurğun - 100 // Mədəni-Maarif. - 2006. - №10. - S.8.
Kələntərli K. Yazılmamış həqiqətlər : S.Vurğun -100. - // Azərbaycan. - 2005. - № 10. - S.134-146.
Kərimova S. Ömrü bahar yağışıtək qısa olan şair : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 14 aprel. - S.4.
Qarabağlı S. Ağır günün dostları : Üzeyir Hacıbəyov və Səməd Vurğun haqqında // Mədəni Maarif. - 2010. - N 7. - S. 31-34.
Qələndərov Q."Yüz il yaşasam da, ölməyəcəyəm" : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 14 aprel. - S.6.
Quliyev E. Vurğunşunaslıq töhfəsi : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 27 oktyabr. - S.1,2.
Mahmudov C. Baharda gələrdi şair Qubaya : Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 18 iyul. - S.7.
Mehdixanlı T. Ulu öndərin təşəbbüsü ilə yaradılan muzeylər // Azərbaycan. - 2006. - 17 may. - S.4.
Məmmədoğlu B. S.Vurğun poeziyasında musiqinin tərənnümü : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 2 iyun. - S.7.
Məmmədov Ş. "Unutmaz bu oba, bu mahal məni": Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 31mart. - S.4.

Məmmədova K. Xatirələr yada düşdü : Səməd Vurğun - 100 // Mədəni - Maarif. - 2006. - № 8. - S.46-48.
Mikayılov Ş. Ədəbi-bədii materialların şərhində və obrazların səciyyələndirilməsində şəxsiyyətyönümlüyün nəzərə alınması // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2010. - N 4. - S. 13-20. - Məqalədə görkəmli adamların Səməd Vurğun haqqında deyimləri verilmişdir.
Mirzə N. O, bir yaz günü dünyaya göz açmışdı : Səməd Vurğunun qızı Aybəniz Vurğunqızı ilə görüş // Azərbaycan müəllimi. - 2008. - 20 mart. - S. 6.
Mirzəqızı S."35 yaşlı Vurğun ocağı" : Səməd Vurğunun ev muzeyi haqqında // Yazıçı qadınlar. - 2010. - N sentyabr-dekabr 14/17. - S. 73-75.
Moskvada Səməd Vurğunun 100 illik yubileyinin keçirilməsinə həsr edilmiş mətbuat konfransı olmuşdur : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 27 oktyabr. - S.1.
Mükərrəmoğlu M."Nə yaxşı ki, dünyada Səməd Vurğun var...": Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 28 aprel. - S.7.
Nəzirli Ş.Ə. Qaxda Səməd Vurğun muzeyi : Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 21 may. - S.1.
Rəcəbov Q.     Şair gəzən yerdi bu yerlər : Səməd Vurğun - 100 // Azərbaycan. - 2006. - 4 may. - S.7. .
Rza X (Ulutürk). Vurğunlu Moskva günləri : Səməd Vurğun // Ulduz. - 2006. - № 3. - 41-45.
Rzayev Y. İnamın faciəsi // Azərbaycan. - 2008. - № 11. - S. 180-185.
Salmanov R. Kökünə bağlı Vurğun : Aybəniz Vəkilovanın oğlu rəssam Vurğun Vəkilov haqqında // Xalq qəzeti. - 2010. - 20 mart. - N 63. - S. 11.
Səfərov İ. Yüz il yaşasam da ölməyəcəyəm : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 25 avqust. - S.5.
Səməd Vurğunun 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Xalq qəzeti. - 2006. - 7 fevral.

- S.1.  ; Azərbaycan. - 2006. - 7 fevral. - S.1. ; Ədəbiyyat qəzeti. - 2006. - 10  fevral. - S.1.
Səmədoğlu V. Atam əmək fəaliyyətinə müəllim kimi başlayıb : [Xalq şairi Vaqif Səmədoğlu ilə söhbət / yazdı Ə.Daşdəmirli] // Azərbaycan müəllimi. - 2011. - 2 dekabr. - № 47. - S. 8-9.
Sərvaz. Mənim Aybənizim, mənim qız balam : Aybəniz Vəkilovanın xatirəsinə // Ədəbiyyat qəzeti. - 2010. - 24 ssentyabr. - N 38. - S. 6.
Soltanqızı P. "Ey könül! Min namə yaz, bir gülüzarın eşqinə" : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 5 may. - S.7.
Soltanqızı P. Müsəlləh əsgərəm mən də bu gündən : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2006. - 7 aprel. - S.6.
Şadlinskaya X. "Sevərək yaşayanlar, sevilərək ölənlər." // Mədəniyyət. - 2010. - 8 yanvar. - N 91. - S. 5.
Şadlinskaya X. Sevərək yaşayanlar : Səməd Vurğunun yaxınları Xavər xanım və Aybəniz xanım haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 5 mart. - N 9. - S. 5.
Şəfiqə. Könlüm keçir Qarabağdan... // Şəkər villası. - 2006. - 23 may. - S.18.
Təranə. Vurğuna vurğun qadın // Mədəniyyət. - 2010. - 12 mart. - N 17. - S. 14.
Ukraynada Səməd Vurğunun yubiley tədbirləri davam edir : Səməd Vurğun - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 10 noyabr. - S.1.
Ülvi A. Aforizmlər dahilərin qismətidir : Səməd Vurğun haqqında 100 aforizm // Xalq qəzeti. - 2006. - 27 aprel. - S.7.
Ülvi A. Ayrılarmı könül candan... : Səməd Vurğun - 100 // Xalq qəzeti. - 2006. - 25 may. - S.7.
Ülvi A. Bir əsirlik şair ömrünə yetən "SƏS"lərimiz : Səməd Vurğunun 100 illiyi ilə bağlı Rusiyada çap edilmiş "Qolos" kitabı haqqında // Xalq qəzeti. - 2005. - 16 sentyabr. - S. 8.
Ülvi A. Unutmaz bu oba, bu mahal məni: Səməd Vurğun poeziya günləri // Xalq qəzeti. - 2007. - 30 mart. - S.8.

Ülvi A. Yaradıcı şəxsiyyətlərə mənəvi borc tükənməz : Səməd Vurğun və Mirzə İbrahimov haqqında // Xalq qəzeti. - 2006. - 17 noyabr. - S.7.
Vahabzadə B (1925-2009.). Şairin sevgi lirikası : Səməd Vurğunun sevgi lirikası // Ədəbiyyat qəzeti. - 2009. - 27 noyabr. - N 45. - S. 2. - Məqaləni redaksiyaya Səməd Vurğunun ev muzeyinin baş mühafizi Aygün xanım Vəkilova təqdim etmişdir.
Vəfalı A. " O xalqımıza, millətimizə xidmət edir" : Yubiley // Ədəbiyyat qəzeti. - 2007. - 14 sentyabr. - S.3.
Vəkilova A. Məktəb illəri : 9 sentyabr Aybəniz xanımın doğum günüdür // Ədəbiyyat qəzeti. - 2009. - 4 sentyabr. - S. 3.
Vəkilova A. O həm də ata idi : Səməd Vurğun haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 17 iyul. - S. 2. - Məqalə Səməd Vurğunun 70 illiyində "Azərbaycan qadını" jurnalında dərc olunmuşdur (№ 9, 1976).
Vəkilova A. O həm də ata idi... : 27 may böyük şair Səməd Vurğunun xatirə günüdür // Mədəniyyət. - 2010. - 26 may. - N 34. - S. 14.
Vəkilova A."Xeyirxahlıq atamın qanına hopmuşdu" // Mədəniyyət. - 2008. - 22 may. - S. 5.
Yusifqızı L."Həyat üçün doğulmuşam, yaranışımdan" : Səməd Vurğun - 100 // Azərbaycan müəllimi. - 2005. - 12 may. - S.7.

## SƏMƏD VURĞUNA HƏSR OLUNMUŞ BƏDİİ ƏSƏRLƏR

Araz M. Səməd Vurğunla söhbət : şeir : S.Vurğunun 60 illik yubiley gününə həsr olunur // Seçilmiş əsərləri. - B. : Çaşıoğlu, 2004. - S.36-39.
Araz M. Səməd Vurğunla söhbət : 60 illik yubiley günündə // Seçilmiş əsərlər. 4 cilddə. I c. - B. : Ozan, 2004. - S. 238-240.
Bayram T.Vurğun dedim : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 90-91.

Bayram T.Vurğun: şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 118.
Bayram T. El məhəbbəti : Səməd Vurğuna həsr olunmuş şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 119.
Dəmirçi Z. Şairin ölümü : Səməd Vurğunun xatirəsinə həsr olunmuş poema // Qayalı. - B. : UniPrint, 2008. - S. 332-337.
Əlioğlu M. Poetik düşüncələr : Səməd Vurğunun yaradıcılığı haqqında // Darıxan adamlar. 2 cilddə. I c. - B. : Təhsil, 2009. - S. 773-777.
Xəlil Z. Səməd Vurğun haqqında dörd şeir : Dedim şeir yazım ona ; Ölüm haqqında söhbət ; Şairin səsi ; Qəbrin üstə düşdü ilk qar // Seçilmiş əsərləri : şeirlər, poema, pyeslər. - Bakı : Öndər, 2004. – S.102-112.
Rüstəm S. Dostum, bilirsənmi?! : Səməd Vurğunun 50 illiyinə // Seçilmiş əsərləri 3 cilddə. C.1. - Bakı : "Şərq-Qərb", 2005. - S.87. .
Səfərli İ. 1906-1956 : Səməd Vurğuna // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 172-173.
Təhməz B.Ölməz şairə : Səməd Vurğunun 100 illiyinə // Seçilmiş əsərləri. - B. : Araz, 2010. - S. 160.

## DÖVRİ MƏTBUATDA

Ələkbərli M.Vurğun : şeir // Ulduz. - 2009. - № 6. - S. 23.
Gülgün M. Səməd Vurğuna : şeir : 1966 // Ədəbiyyat qəzeti. - 2006. - 5 may. - S.1.

## SÖZLƏRİNƏ BƏSTƏLƏNMİŞ MAHNILAR

Ağarma, saçım / bəst. Ə.Məmmədov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.9.
Ala gözlər/ bəst. H.Xanməmmədov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.13.

Azərbaycan / bəst. Ə.Tağıyev// Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.51.
Bənövşə / bəst. S.Fərəc // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.83.
Ceyran / bəst. Q.Hüseynli // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.115.
Dağlar / bəst. E.Sabitoğlu // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.127.

Dağlar / bəst. Q.Hüseynli // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.127.
Dağlar / bəst. T.Hacıyev // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.128.
Fərzəli / bəst. E.Sabitoğlu // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.177.
Gülə-Gülə / bəst. Q.Hüseynli // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.224..
İki könül görüşəndə / bəst. Z.Bağırov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.259.
İlk xatirələr / bəst. Ş.Axundova // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.263.
Məcnunə dönüb / bəst. Z.Xanlarova // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.335.
Oxu, Gözəl / bəst. S.Rüstəmov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.397.
Şair, nə tez qocaldın sən / bəst. V.Adıgözəlov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.484.
Ürəyim sənsən / bəst. Z.Xanlarova // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.526.
Vətən, sənə vurulmuşam / bəst. Z.Xanlarova // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.532.

Yada sal məni / bəst. Q.Əsgərov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.539.
Yadıma düşdü / bəst. Ə.Tağıyev // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.539.
Yaxın gəl / bəst. H.Xanməmmədov // Min bir mahnı : Rafiqin mahnı kitabı. – Bakı : Min bir mahnı, 2007. – S.542.

Səməd Vurğunun 110 münasibəti ilə hazırlanmış metodik vəsait

Kompyuter yığımı
və dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz